UOT 94 (100-87)
https://doi.org/10.59849/2710-0820.2026.1.22

**Aidə Bağırova**
*Tarix elmləri doktoru, dosent*
*Bakı Dövlət Universiteti*
*aida_bagirova@yahoo.com*
*ORCİD 0000-0003-4458-69870*

# 2003-cü İL MÜHARİBƏSİNDƏN SONRA İRAQIN YENİDƏN QURULMASININ BƏZİ ASPEKTLƏRİNƏ DAİR

***Açar sözlər:*** *İraq, 2003-cü il müharibəsi, ABŞ, beynəlxalq koalisiya, İraqın yenidən qululması, BMT-nin Təhlükəsizlik Şurası*

## Giriş

XX əsrin sonlarından İraq ərtafında yaranan ciddi hərbi-siyasi böhran 2003-cü ildə son mərhələsinə daxil oldu. 2003-cü il martın 20-də ABŞ, Böyük Britaniya və Avstraliya koalisiya qüvvələri "İraqın Azadlığı" kod adlı hərbi əməliyyata başladılar. Hərbi əməliyyat planı üç mərhələdən ibarət idi: 1. Strateji hədəflərə qarşı kütləvi hava hücumu və İraqın hava hücumundan müdafiə sisteminin sıradan çıxarılması; 2. Ölkənin qərb hissəsindəki "Skad" buraxılış məntəqələrinin və Umm-Qəsrdə yerləşən dəniz qüvvələrinin məhv edilməsi; 3. Koalisiya quru qüvvələrinin mümkün qədər tez Bağdada doğru irəliləməsi, bütün mövcud müqavimət ocaqlarının dağıdılması. 1990-1991-ci il "Səhrada tufan" əməliyyatından fərqli olaraq, 12 il sonra koalisiya qüvvələri uzun müddətli hava əməliyyatı olmadan qurudan hücuma keçdi. 2003-cü il aprelin 9-da onlar Bağdadı müqavimətsiz ələ keçirdikdən, aprelin 15-də isə Səddam Hüseynin doğulduğu Tikrit şəhərini tutduqdan sonra hərbi əməliyyatların aktiv mərhələsini başa çatdırdı. Beləliklə də, koalisiya öz əsas məqsədinə – S. Hüseynin başçılıq etdiyi rejiminin ləğvinə nail oldu, hakim Bəəs partiyası iqtidarı siyasi səhnəni tərk etdi. 35 il ərzində ölkənin sosial-iqtisadi və siyasi inkişafını, daxili və xarici siyasətini inhisara alan və təkbaşına müəyyən edən birpartiyalı rejiminin süqutu ölkədə əsaslı hakimiyyət boşluğu yaratdı. İnzibati və iqtisadi idarəetmə sistemi ilə sıx bağlı olan rejimin sıradan çıxması İraq cəmiyyətinin bütün sahələrinə ciddi təsir edərək, bir çox mənfi proseslərə təkan verdi.

## Tədqiqat

Hərbi əməliyyatlar başa çatdıqdan sonra ABŞ-ın rəhbərlik etdiyi koalisiya qarşısında İraqın siyasi quruluşunun müəyyənləşdirilməsi və mərhələli şəkildə dövlət qurumlarının formalaşdırılması kimi ciddi bir vəzifə dayanırdı. Yeni İraqın qurulması ilə bağlı Vaşinqtonun ümumi strateji xətti formaca asan idarə olunan, mahiyyət etibarilə isə S. Hüseynin diktatura rejiminə demokratik alternativ olan siyasi sistemin yaradılmasından ibarət idi. 2003-cü il mayın 1-də ABŞ prezidenti C. Buş müharibənin başa çatdığını rəsmən elan etdi və bəyan etdi ki, "koalisiyanın əsas məqsədi İraqın yenidən qurulması və onun suveren və müstəqil statusa qayıtması üçün lazım olan şəraitin yaradılması olacaq" [Буш объявил об окончании войны в Ираке: http://www.newsru.com/world/02may2003/end.html]. Bu, öz növbəsində, 12 il sanksiyalar rejiminin məngənəsində yaşayan İraqın beynəlxalq əlaqələrinin bərpası və regional iqlimin yaxşılaşdırılması üçün real şərait yaratmalı idi. Bunun reallaşması ABŞ Müdafiə Nazirliyinin digər qurumlarla birgə hazırladığı plana əsasən həyata keçirilməli idi. Bu mərhələdə planın bəzi bəndləri daha dəqiq təhlil tələb edirdi və dəfələrlə dəqiqləşdirilirdi, bəzən ciddi korrektələrə məruz qalır və ya tamamilə ləğv edilirdi. Lakin planda diqqət mərkəzində olan əsas məsələ ABŞ-ın ciddi nəzarəti altında mərkəzi və yerli hakimiyyət orqanlarının qurulması idi [Moens, 2004, s.61].

Birinci mərhələdə İraqın idarəçiliyi ABŞ-ın Müdafiə Nazirliyinin nəzdində yaradılmış

Yenidənqurma və Humanitar Yardım İdarəsinə (ORHA) verildi. Bu qurumun funksiyalarına müharibədən sonrakı dövrdə İraqda ABŞ-ın bütün hərəkətlərinin əlaqələndirilməsi daxil idi. Hərbi əməliyyatlar başlamazdan əvvəl ORHAnın qərargahı Küveytdə yerləşirdi, əməliyyatlar bitəndən sonra, 2003-cü il aprelin sonunda onun üzvləri İraqda köçdülər [Pauly, Lansford, 2005, s.180]. May ayına qədər Büroda 700-ə yaxın əməkdaş çalışırdı. Bu qurumdan əlavə Müvəqqəti Koalisiya İdarəçiliyi (MKİ) də yaradıldı ki, onun funksiyalarına İraq cəmiyyətinin hüquqi, iqtisadi və sosial əsaslarının bərpası üçün praktiki fəaliyyətin idarəolunması, habelə müxtəlif səpkili humanitar əməliyyatların təşkili və həyata keçirilməsi daxil idi [Багирова, 2017, s.119]. İkinci mərhələ ölkənin əsas etnik, dini və milli qruplarının nümayəndələrindən yaradılmış İraqın Müvəqqəti İdarəetmə Şurasına (İMİŞ) hakimiyyətin verilməsindən dərhal sonra başlamalı idi. Onun əsas vəzifəsi İraq Konstitusiyasının mətninin və ümummilli seçkilərin hazırlanması və keçirilməsi üçün əsas hüquqi sənədlərin hazırlanması və qəbul edilməsindən ibarət idi. Müvəqqəti hökumət isə məşvərətçi funksiyalarını saxlasa da, faktiki olaraq ölkənin siyasətini ABŞ müəyyənləşdirirdi. Üçüncü mərhələ, zəruri konstitutusiyon prosedurlar başa çatdıqdan, parlament seçkilərinin keçirilməsindən və yeni Konstitusiyanın qəbulundan sonra İraqın milli hökumətinin formalaşdırılmasını nəzərdə tuturdu. Bu hökumət ölkədə tam səlahiyyətləri öz üzərinə götürməli və onun idarə olunmasında məsuliyyət daşımalı idi [Arı, 2006, s. 603].

2003-cü il mayın 19-da ABŞ-İngiltərə alyansının təklifi ilə BMT Təhlükəsizlik Şurası İraqla bağlı qətnamə layihəsinin müzakirəsinə başladı. Onun əsasında 1991-ci ilin mayın 22-dən tətbiq edilən beynəlxalq sanksiyalar və embarqo rejiminə son qoyan, həmçinin İraqın müharibədən sonrakı bərpası problemlərinə beynəlxalq birliyin ümumi yanaşmalarını əks etdirən 1483 saylı qətnamə yekdilliklə qəbul edildi. Qətnamədə həmçinin ölkənin ərazi bütövlüyünü və suverenliyini qorumaq şərti ilə onun siyasi sisteminin təşkili prinsipləri müəyyənləşdirildi, beynəlxalq normalara uyğun olaraq işğalçı qüvvələr kimi tanınan ABŞ və Böyük Britaniyanın xüsusi səlahiyyətləri, məsuliyyəti və öhdəlikləri təsdiq edildi. Koalisiya qüvvələrinin işğalçı statusunun tanınması məsələsi ABŞ nümayəndəsi tərəfindən qaldırıldı və BMT tərəfindən rəsmən tanındı [Secretary Council Resolution 1483// http://unscr.com/en/resolutions/148347]. İraqın beynəlxalq səviyyədə tanınmış hökumətinin formalaşmasına və onun səlahiyyətlərini öz üzərinə götürməsinə qədər olan dövr üçün İraqı idarə etmək funksiyaları MKİ-nə həvalə edildi. Bu qətnamənin qəbulu faktiki olaraq İraq müharibəsini beynəlxalq birlik tərəfindən legitimlik alması demək idi.

ABŞ yeni statusunu rəhbər tutaraq İraqda işğalçı güc strukturları yaratmağa başladı. 12 may 2003-cü ildə istefada olan general C. Qarnerin rəhbərliyi altında fəaliyyət göstərən ORHA diplomat P. Bremerin rəhbərlik etdiyi MKİ ilə əvəz olundu. İraq hərbi nəzarətdən mülki nəzarətə keçsə də, ABŞ Müdafiə Nazirliyi ölkədəki proseslərin bütün aspektlərini müəyyənləşdirməyə, istiqamətləndirməyə və əlaqələndirməyə davam edirdi. MKİ-nin göstərişinə uyğun olaraq, ölkə bir neçə işğal zonasına bölündü. Bağdad, sünni üçbucağı, şimali İraq və əl-Ənbar əyaləti ABŞ hərbçilərinin nəzarətinə verildi. Bağdadın cənubundakı şiələr yaşadığı ərazilər Polşa, Ukrayna, İspaniya, İtaliya və bir sıra Mərkəzi Amerika ölkələrinin hərbi kontingentlərindən təşkil olunmuş çoxmillətli qüvvələrin məsuliyyəti altına keçdi. Britaniya kontingenti ölkənin cənubunda yerləşən Bəsrədə yerləşdirildi. Qeyd edək ki, BMT Təhlükəsizlik Şurasının 1483 saylı qətnaməsinə əsasən, Böyük Britaniya istisna olmaqla, koalisiyaya üzv olan digər dövlətlər işğalçı qüvvələr hesab edilmir və MKİ-nin nəzarəti altında fəaliyyət göstərirdilər [Secretary Council Resolution 1483 // http://unscr.com/en/resolutions/148347].

MKİ-nin ilk fərmanı Iraq ordusu və polisinin buraxılması oldu. Bir ay sonra, 2003-cü il iyunun 23-də MKİ-nin rəhbəri P. Bremer İraqın yeni ordusuna könüllülərin cəlb edilməsinə başladığını elan etdi [Юрченко, 2003, s.22-31]. Orduya qadağa olunmuş Bəəs partiyasının fəal funksionerləri istisna olmaqla, İraqın bütün keçmiş hərbi qulluqçuları, o cümlədən yüksək rütbəli zabitlər, Respublika Qvardiyasında, Xüsusi Respublika Qvardiyasında, təhlükəsizlik və kəşfiyyat qurumlarında xidmət edənlər cəlb oluna bilərdilər. Regionun aparıcı dövlətlərdən

biri roluna iddialı olan İraq müasir silah və hərbi texnika ilə təchiz edilmiş güclü, yaxşı təlim keçmiş orduya ehtiyac duyurdu. Mürəkkəb ölkədaxili siyasi durum, ərazi bütövlüyünün qorunması problemi təhlükəsizliyin və sabitliyin təminatçısı, siyasi prosesin inkişafında, milli həmrəylik kursunun həyata keçirilməsində mühüm amilə çevriləcək ordunun yaradılması zərurətini diktə edirdi.

Koalisiya qüvvəllərin əsas vəzifələrindən biri yerli hakimiyyət orqanlarının formalaşdılması üçün şəraitin yaradılması, siyasi, hüquqi və inzibati baza hazırlaması idi. Vaşinqton öz məqsədini İraqda Qərb demokratiyası prinsiplərinə əsaslanan, regionun digər ölkələri üçün bir növ etalona çevriləcək dövlətin yaradılması olduğunu dəfələrcə bəyan edirdi. Lakin işğalın ilk günlərindən ölkənin xüsusiyyətlərindən bir kimi üç müstəqil icmanın – şiə, sünni ərəb və kürd icmalarının olmasını da israrla vurğulanırdı. Vaşinqton davamlı şəkildə keçmiş rejim dövründə şiə və kürdlərin tapdalanan hüquqlarının bərpa olunmasının vacibliyini qeyd edirdi. [Сушенцов, 2010, s. 57] Bu səbəbdən də əsas diqqət üç etno-sosial qrupun konqlomeratı olan Səddam əleyhinə müxalifətə – dünyəvi, əsasən mühacir müxalifətə, şiə dini müxalifətə və ölkədə yeni hökumət strukturlarının formalaşmasında hakimiyyət iddiası ilə çıxış edən kürdlərə yönəlmişdi.

Dünyəvi mühacir müxalifəti arasında Əhməd Çələbinin başçılıq etdiyi İraq Milli Konqresi (İMK) seçilirdi və uzun müddət S. Hüseyn rejiminə yeganə alternativ hesab edilirdi. [Юрченко. www.iimes.ru/rus/stat/2003/27-01-03.htm124]. Lakin proseslərdə məlum oldu ki, nə onun özünün, nə də rəhbərlik etdiyi strukturun geniş ictimai dəstəyi yoxdur və ölkə daxilində populyar deyillər. İraqın şiə icması kifayət gədər rəngarəng idi; müharibədən öncə onun həm dini, həm də dünyəvi liderləri ölkədən kənarda fəaliyyət göstərirdilər. Onların arasında ən nüfuzluları İraq İslam Respublikasının Ali Şurası (İİRAŞ) və "əd-Daava əl-İslamiyyə" partiyası idi [Багирова, 2006, s. 271]. Məhz şiə dini müxalifəti (liderlər – Ayətullah M.B. əl-Həkim, Ayətullah Əli Sistani və Səddamın zindanında öldürülən Ayətullah M.S. əs-Sədrin oğlu Müqtəda əs-Sədr) və onların nəzarətində olan silahlı birləşmələr ölkədə real hərbi-siyasi gücə malik idilər. 2003-cü ilin avqustunda İİRAŞ-nın lideri Ayətullah M.B. əl-Hakimin qətlindən sonra (onu qardaşı Ə.Ə. əl-Hakim əvəz etdi) şiə icması faktiki olaraq parçalandı: radikal qanad Müqtəda əs-Sədrin ətrafında birləşdi, mötədillər isə Ə.Ə. əl-Hakim və Ə.Sistanini dəstəkləyirdilər [Сажин, 2003, s. 91]. Kürdlərə gəlincə, danılmaz faktdır ki, ölkənin siyasi qüvvələri arasında Vaşinqton onları əsas müttəfiqləri hesab edirdi. ABŞ-ın himayəsindən və dəstəyindən istifadə edən kürd liderləri – M. Bərzani və C. Talabani, aralarında ciddi ziddiyyətlərin olmasına baxmayaraq, post-Səddam dövrünün siyasi məkanında əsas oyunçulardan biri və ölkədəki daxili siyasi proseslərə təsir edə bilən qüvvə kimi aparıcı mövqeyə iddialarını aydın şəkildə ortaya qoydular. Müharibədən sonra Kürd Muxtar Vilayəti (KMV) faktiki olaraq müstəqil dövlətə xas olan atributlara malik vahid əraziyə çevrildi [Simpson, 2003, s. 352]. Kürdlərə məxsus peşmərgə hərbi birləşmələri koalisiya qüvvələrinin dəstəyi ilə türkmanlara və ərəblərə qarşı etnik təmizləmə siyasəti apararaq, onları terror və hədə-qorxu ilə öz köklü yerlərini tərk etməyə məcbur edirdilər [Saatçı, 2007, s. 251]. İraqdakı digər etno-konfessional qrup olan sünni ərəblərin uzun müddət ölkədə dominant mövqelər tutduqları məlumdur. Bəəs partiyası iqtidari dövründə onlar partiya iyerarxiyasında, hökumət strukturlarında, ordu və təhlükəsizlik orqanlarında çoxluq təşkil edirdilər. S. Hüseyn rejiminin süqutundan sonra sünnilər arxa plana keçdi və faktiki olaraq ölkənin siyasi və iqtisadi həyatında autsayderə çevrildilər.

Yerli hakimiyyət orqanlarının formalaşdırılması üçün lazımi siyasi, hüquqi və inzibati bazanın hazırlanması məqsədilə 2003-cü ilin aprelində MKİ İraq müxalifət qüvvələrinin iştirakı ilə üç görüş təşkil etdi. İlk belə görüş aprelin 12-də Kərkükdə amerikalıların himayəsi və Türkiyə xüsusi hərbi kontingentinin nümayəndələrinin müşahidəçi qismində iştirakı ilə baş tutdu. Şimali İraqın üç əsas etnik qrupu – kürdlər, türkmanlar və ərəblər – bölgəyə nəzarəti öz əllərində cəmləşdirməli olan 21 nəfərdən (hər birindən 7 üzv) ibarət komissiya yaratmağa razılaşdılar. Aprelin 15-də Nasıriyyədə ORHA rəhbəri C. Qarner və Ağ Evin xüsusi nümayəndəsi Z. Xəlilzadın iştirakı ilə ölkənin siyasi qüvvələrinin 100-ə qədər təmsilçisinin forumu

keçirildi. Onun nəticəsi olaraq, Bəəs partiyası rejiminin tamamilə ləğv edildiyini və "demokratik federativ İraqın" əsaslarını yaratmağı hədəf seçən Nəsıriyyə Bəyannaməsi qəbul edildi [Yılmaz, 2004, s. 78]. Öz miqyası və əhəmiyyətinə görə ən böyük toplantı 2003-cü il aprelin 28-də ən iri şiə təşkilatı İİRAŞ istisna olmaqla, ölkədəki siyasi qüvvələrin bütün spektrini təmsil edən 300 nümayəndənin iştirakı ilə keçirilən Bağdad forumu idi. Nəticədə ölkədə müvəqqəti hökumət strukturlarının yaradılması prinsiplərini əks etdirən Bağdad Bəyannaməsi qəbul edildi [Юрченко, 2003, s.78]. Ümumilikdə isə, adıçəkilən görüşlər və qəbul olunan sənədlər İraqda demokratiya, hakimiyyət bölgüsü, plüralizm və insan hüquqlarına hörmət prinsiplərinə əsaslanmalı olan yeni siyasi sistemin yaradılması mexanizmlərini formalaşdırması üçün şərait yaratmalı idilər. Bu istiqamətdə ölkənin dünyəvi qanunlar əsasında idarə olunan federativ quruluşunun yaradılması nəzərdə tutulurdu.

Qeyd edək ki, S. Hüseyn rejiminin süqutundan və ölkədə hərbi əməliyyatların formal şəkildə başa çatmasından dərhal sonra koalisiya qüvvələrinə qarşı silahlı müqavimət başlandı. Bu, öncə kortəbii xarakter daşısa da, getdikcə daha mütəşəkkil və intensiv xarakter aldı. Müqavimətin ilkin mərhələsində 2003-cü ilin aprel - may aylarında koalisiya qüvvələrinə silahlı hücumlar, bir qayda olaraq, əhalinin kütləvi, bir çox hallarda kortəbii nümayişləri fonunda böyük şəhərlərdə – Bağdad, Hillə, Nasıriyyə, Bəsrə, Mosul və s.-də baş verdi [Юрченко, 2003, s.27]. Ən kütləvi çıxışlar İraqın cənub gölgəsində şiə əhalisinin yaşadığı ərazilərdə müşahidə olunurdu. Məhz bunların fonunda 2003-cü ilin aprelində İİRAŞ öz siyasi fəaliyyətinə başladığını elan etdi. 2003-cü ilin yayında silahlı toqquşmalar, təxribat və terror aktları davamlı xarakter aldı və əsasən Bağdadı və paytaxtın şimal və şimal-qərbindəki əraziləri, yəni sabiq rejimlə sıx əlaqəsi olan sünni tayfalarının təsirinin ənənəvi güclü olduğu yerləri əhatə edirdi. Bu dövr keçmiş İraq ordusunun anbarlarından külli miqdarda silah və sursat ələ keçirməyə bacaran, əsasən Bəəs partiyasının fəallarından və S. Hüseyn tərəfdarlarından ibarət mütəşəkkil partizan dəstələrinin meydana çıxdığı bir dövr idi. Onlar əsasən Ramadi, Fəllucə, Bağdad və Tikrit şəhərlərinin ərazilərində fəallıq göstərirdilər. 2003-cü ilin iyununda koalisiya müqavimət qüvvələrinə qarşı ilk iri hərbi əməliyyat – "Yarımadaya zərbə" və "Əqrəb" əməliyyatlarını həyata keçirdi [Гушер, 2003, s. 276]. Qeyd edək ki, koalisiya qüvvələrinə qarşı silahlı aksiyalar İraqda və onun ətrafında siyasi proseslərin inkişafına ciddi təsir göstərirdi. ABŞ komandanlığının məlumatına görə, müqavimətdə üç əsas qrup iştirak edirdi: S. Hüseynin tərəfdarları (Bəəs partiyasının fəalları, "Səddamın fədailəri" qupu, kəşfiyyat xidmətinin keçmiş əməkdaşları, Respublika Qvardiyasının və digər elit birləşmələrinin hərbçiləri); radikal islamçılar; adi kriminal ünsürlər. Bura keşmiş İraq ordusunun və polisinin bəzi üzvlərini, eləcə də millətçi və anti-amerikan baxışları olan şəxsləri də daxil etmək olardı. [Ключников, 2007, s. 186].

Yaranmış reallıqlar Vaşinqtonu yerli hakimiyyət orqanlarının yaradılması prosesini intensivləşdirməyə məcbur etdi ki, bu da müəyyən mənada ölkədədaxili vəziyyətin sabitləşdiməsi istiqamətində ilk addım idi. Bu planın praktiki icrası üçün MKİ-nin tövsiyəsi və nəzarəti altında keçid dövründə "İraq dövlətinin suverenliyini təmsil edən" İraq Müvəqqəti İdarəetmə Şurasının (İMİŞ) yaradılması nəzərdə tutulurdu. İMİŞ-nın tərkibi 25 nəfərdən (13 şiə, 5 sünni, 5 kürd, 1 türkmфn və 1 xristianların nümayəndələri) ibarət olmalı idi. O, seçkilər keçirilənə və daimi hökumət strukturları yaradılana qədər fəaliyyət göstərməli idi. Şurada ölkənin əsas siyasi partiyaları və ən böyük milli və etno-konfessional qrupları təmsil edilsə də, həlledici amil "rəhbərlərin konfessional prinsiplə seçilməsi" idi. [Ахмед, 2010, s. 194 ]. 30 iyul 2003-cü ildə 9 nəfərdən (5 şiə, 2 sünni və 2 kürd) ibarət İdarə Heyəti formalaşdı; onların nümayəndələri rotasiya yolu ilə 1 ay müddətində qurumun fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirməli idi. Lakin MKİ-nin rəhbəri P. Bremer İMİŞ-nin istənilən qərarına veto qoya bilərdi.

2003-cü il avqustun 31-də İMİŞ-nin 28 saylı fərmanına uyğun olaraq, uzun məsləhətləşmələrdən sonra Nazirlər Kabinetinin 25 nəfərdən ibarət tərkibi elan edildi ki, bu da mahiyyətcə post-Saddam İraqın ilk müvəqqəti hökumətinin yaradılması demək idi. 13 əsas nazir postu şiə çoxluğunun nümayəndələrinə verildi; kürdlər də müvəqqəti hökumətdə əhəmiyyətli

təmsilçiliyə nail ola bildilər (5 yer) və onların namizədi H. Zibari ölkənin Xarici İşlər Naziri oldu. 5 nazir postu sünnilərə, 1 – türkmanlara və 1 – assuriyalı xristianlara verildi. BMT Təhlükəsizlik Şurasının 16 avqust 2003-cü il tarixli 1500 saylı qətnaməsinə əsasən, İMİŞ-ə İraqı beynəlxalq arenada təmsil etmək hüququ əldə etdi [Secretary Council Resolution 1500// http://unscr.com/en/resolutions/148395]. Ərəb Dövlətləri Liqası və İƏT də bu qurumu tanıdıqdan sonra İraqın ərəb və müsəlman dövlətləri sıralarına qayıtmasına şərait yarandı.

Təhlükəsizliyin və sabitliyin təmin edilməsi istiqamətində atılan addımlara baxmayaraq, ölkədədaxili vəziyyət ağır olaraq qalırdı, dövlət qurumlarının, ilk növbədə, İMİŞ-nın və müvəqqəti hökumətin fəaliyyəti iflic vəziyyətində idi. Terror aktları nəticəsində koalisiya qüvvələri arasında itkilər artaraq 2003-cü ilin sentyabrında min nəfərə çatdı, yüzlərlə günahsız dinc sakin zorakılığın qurbanı olmuşdu. ABŞ-ın rəhbərlik etdiyi koalisiya siyasi prosesin irəliləyişində ciddi çətinliklərlə üzləşdi. Yaranmış vəziyyətdən çıxış məqsədilə 2003-cü il oktyabrında ABŞ-ın Dövlət katibi Kondoliza Raysın rəhbərlik etdiyi və geniş səlahiyyətlərə malik "İraq Sabitliyi Qrupu" yaradıldı ki, bu da siyasi prosesin hərbi nəzarətdən mülki idarəçiliyə keçidini təmin etməli idi. [Bush Sending Additional US Forces to Support Iraqi Troops President tells American public he is backing Iraqi security plan: https://www.whitehouse.gov/about-the-white-house/presidents/george-w-bush/194]. Eyni zamanda, ABŞ İraqla bağlı yeni qətnamə layihəsini müzakirə etmək üçün BMT Təhlükəsizlik Şurasına təqdim etdi. Bunun əsas məqsədi ölkədə sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün çoxmillətli kontingentin formalaşdırılmasına imkan yaratmaq idi. 16 oktyabr 2003-cü ildə BMT Təhlükəsizlik Şurasının 1511 saylı Qətnaməsi BMT-nin himayəsi və ABŞ-ın komandanlığı altında çoxmillətli qüvvələrin yaradılmasına icazə verdi. [S/RES/1511 (2003) // https://undocs.org/en/S/RES/1511(2003)].

Atılan addımlar nəticəsində İraqda siyasi prosesləri ölü nöqtədən çıxarmaq mümkün olsa da, silahlı müqavimət səngimədi. Bağdadın qərbində və şimalında "sünni üçbucağı" adlanan ərazi, xüsusilə də əl-Ənbar vilayəti, mərkəzi Felluca şəhəri olmaqla müqavimət hərəkatının mərkəzinə çevrildi. Digər mübarizə forması terror aktlarının təşkili idi – 2003-cü ilin avqustunda İordaniya səfirliyinin binası partladıldı. Terrorçuların digər hədəfi BMT-nin Bağdaddakı mənzil-qərargahı oldu və onun İraq missiyasının rəhbəri S.V. di Mello sui-qəsd nəticəsində öldürüldü. 2003-cü ilin noyabrında İtaliya kontingentinin Nasıriyyə kazarmasının bombalanması koalisiya qüvvələrinə qarşı törədilmiş ən ciddi terror aktı idi. Bu vaxta qədər koalisiya qüvvələri də bir neçə uğurlu əməliyyat həyata keçirmişdilər ki, bunlardan ən irisi 2003-cü il iyulun 22-də Mosulda S.Hüseynin oğulları Uday və Qusayın öldürülməsi və dekabrın 13-də Tikrit bölgəsində S. Hüseynin həbsi olmuşdur.

2003-cü il noyabrın 15-də MKİ və İMİŞ-in nümayəndələri P. Bremer və C. Talabani ölkədə siyasi dəyişiklikləri ehtiva edən planın həyata keçirilməsinin başlanğıcını qoyan "Siyasi proses haqqında Saziş"i imzaladılar [Keegan, 2004, s.167]. Bu sənədə əsasən, 2004-cü ilin fevralın sonunadək keçid dövrünün parlamentinin – Milli Assambleyanın (MA) formalaşması mexanizmlərini müəyyən edən "Əsas Qanun"un (müvəqqəti Konstitusiya) qəbulu nəzərdə tutulurdu. MA-ya seçkilər 2004-cü il mayın 31-dək keçirilməli idi, bundan sonra İMİŞ-in səlahiyyətrləri bitmiş hesab olunurdu. 2004-cü ilin iyuna qədər ölkədə tam hakimiyyəti öz üzərinə götürəcək yeni müvəqqəti idarəçilik formalaşdırılmalı, MKİ isə ləğv edilmili idi. 2005-ci il martın 15-dək ölkənin daimi Konstitusiyasının layihəsini hazırlamaq üçün Müəssislər Məclisinə nümayəndələr seçilməli, Konstitusiya ümumxalq səsverməsindən (referendumdan) sonra qüvvəyə minməli idi. 2005-ci il dekabrın 31-nə qədər yeni hökumət formalaşdıqdan və referendum keçirildikdən sonra keçid dövrü başa çatmış hesab edilirdi.

BMT Təhlükəsizlik Şurasının İraqda ABŞ-ın nəzarəti altında hazırlanmış siyasi islahatlar planını bəyənməsinə baxmayaraq, ölkədəki bəzi siyasi qüvvələr buna qəti şəkildə qarşı çıxırdılar və hesab edirdilər ki, Vaşinqtonun əsil niyyəti "yeni İraq parlamentini faktiki olaraq təyin etmək"dən ibarətdir. İraqın 18 əyalətinin hər birində 5 nəfərin İMİŞ, əyalət şuraları və ölkənin 5 ən böyük şəhərinin şuraları tərəfindən təyin olunduğu 15 üzvdən ibarət "təşkilat komitələ-

ri"nin yaradılması ilə bağlı planın bəndi xüsusilə mənfi reaksiyalara səbəb oldu. Bu 250 təyin edilmiş şəxs MA-ya namizədləri seçməli idi. 2003-cü ilin sonunda şiə dini və dünyəvi liderlər ümumi seçkilərin keçirilməsini və hakimiyyətin seçilmiş hökumətə verilməsini tələb etdilər. Eyni zamanda onlar ABŞ-ın siyasətini tənqid edirdilər və ölkədən xarici qoşunların tez bir zamanda çıxarılmasını və "İslam dünyasına və İslam dəyərlərinə əsaslanan demokratik İslam dövlətinin" yaradılmasını təklif edirdilər. [Abbasi, Naqvi, 2024, s. 53]. Vaşinqtonun yerli siyasi qüvvələrin tələblərinə məhəl qoymaması ölkənin bir sıra bölgələrində vəziyyətin yenidən gərginləşməsinə səbəb oldu. Bu, BMT-ni problemin həllinə qarışmağa məcbur etdi – 2004-cü il yanvarın əvvəlində BMT-nin Baş katibi K.Annan İMİŞ-in rəhbərliyi ilə danışıqlar zamanı ümumi demokratik seçkilərin keçirilməsi imkanlarını öyrənmək üçün xüsusi komissiyanın yaradılacağını bildirdi. 2003-cü il fevralında Əlcəzair diplomatı L. Brahiminin başçılığı ilə ekspertlər missiyası Bağdada səfər etdi, müxtəlif siyasi qüvvələrin nümayəndələri ilə məsləhətləşmələr apardı, nəticədə müəyyən kompromis əldə etmək mümkün oldu. Bu, İMİŞ-in müvəqqəti Konstitusiyanın imzalanmasına yol açdı [Сапронова, 2005, s. 84].

2004-cü il martın 8-də vəziyyətin nisbi sabitləşməsi fonunda "Keçid dövründə İraq Dövlətinin idarə edilməsi haqqında Qanun" (müvəqqəti Konstitusiya) qəbul edildi. Bu, müvəqqəti dövlət orqanlarının fəaliyyət qaydası ilə bağlı əsas müddəaları təsbit etdi, müvəqqəti dövlət orqanlarının səlahiyyətlərini müəyyən etdi, vətəndaşların mühüm hüquqlarını bəyan etdi, daimi Konstitusiya əsasında yeni hökumətin və parlamentin formalaşdırılması proseduru və müddətini müəyyənləşdirdi [Сапронова, 2004, s. 231]. Xarici işğal şəraitində qəbul edilən sənəd bütün sabiq dövlət və qanunverici qurumların ləğvini, Bəəs partiyasının qadağan edilməsini, keçmiş rejim dövründə formalaşmış bir çox model və stereotiplərin aradan qaldırılmasını nəzərdə tuturdu. Onun əsas vəzifəsi ölkə üçün yeni dövlət və siyasi sistemin quruluşunun əsaslarını formalaşdırmaq və cəmiyyəti daimi fəaliyyət göstərən Əsas Qanunun qəbuluna hazırlamaq idi. Qanunun müddəalarına əsasən, keçid dövrü 2004-cü il iyunun 30-da ölkənin müvəqqəti Konstitusiya əsasında müvəqqəti hökumətinin formalaşdırılması ilə başlamalı və 2005-ci il dekabrın 31-dən gec olmayaraq daimi Konstitusiya əsasında milli hökumətin formalaşdırılması ilə başa çatmalı idi. Keçid dövrü iki mərhələdən ibarət olmalı idi: birinci mərhələdə hakimiyyətin bütün əsas funksiyalarına malik müvəqqəti hökumət qurulurdu; ikinci mərhələ keçid hökumətinin formalaşması və MA-ya seçkilərin keçirilməsindən sonra daimi Konstitusiya əsasında ölkənin qanuni hökumətinin təsdiqi ilə başa çatmalı idi. Konstitusiya bir-birindən müstəqil olan Milli Assambleya, Prezident Şurası, Nazirlər Kabineti və məhkəmə sistemininindən ibarət qanunvericilik, icra və məhkəmə orqanlarına səlahiyyətlərin bölünməsi prinsipini tətbiq etməklə İraqın dövlət strukturlar ının yeni sistemini təsbit etmiş oldu.

Siyasi proseslərin inkişafına baxmayaraq, 2004-cü ilin yazında ölkədə yeni silahlı etiraz dalğası başladı. Sünni müqavimətinin əsas qalası olan Fəllucada koalisiya qüvvələri ilə silahlı toqquşmalar vüsət edirdi. Mübarizənin bu mərhələsinin fərqləndirici xüsusiyyətindən biri şiələrin mərkəzi və cənubi İraq şəhərlərinin hamısını əhatə edən kütləvi aksiyaları idi. Qeyd edək ki, şiə çıxışlarının başlaması koalisiya qüvvələri üçün xoşagəlməz sürpriz olsa da, onlar əhəmiyyətli itkilər bahasına aprelin sonuna kimi əsas müqavimət mərkəzlərini susdura bildilər. Nasıriyyə yaxınlığındakı döyüşlərdə M. əs-Sədrin silahlı birləşməsi – Mehdi ordusuna ciddi zərbələr vuruldu və nəticədə o, atəşkəs elan etmək məcburiyyətində qaldı. Fəlluçadakı qarşıdurma da analoji usullarla həllini tapdı və şəhərdə asayiş təmin olundu.

2004-cü il mayın sonunda ABŞ-Britaniya alyansı beynəlxalq koalisiyanın statusu və 30 iyuldan sonra yaranacaq İraq hökumətinin səlahiyyətləri haqqında qətnamə layihəsini BMT Təhlükəsizlik Şurasına təqdim etdi. 8 iyun 2004-cü il tarixli 1546 saylı qətnamə ilə İraqın suveren Müvəqqəti Hökumətinin yaradılması və MA-nın çağırılması üçün siyasi keçid cədvəli təsdiqlədi. Demokratik dövlət idarəçiliyinə keçid üçün qətnamədə həmçinin İraq cəmiyyətinin müxtəlifliyi də nəzərə alınırdı. 28 iyun 2004-cü ildə MKİ öz səlahiyyətlərini 33 nazirdən ibarət müvəqqəti keçid hökumətinə rəsmi olaraq təhvil verdi. İMİŞ-in başçısı H.Ə. əl-Ya-

vər ölkə prezidenti, müvəqqəti hökümətin başçısı isə Ə. Ələvi oldu, bundan sonra İMİŞ buraxıldı. Beləliklə, İraqın bir ildən çox davam edən xarici işğalına son qoyuldu; bundan sonra beynəlxalq koalisiya qüvvələri ölkədə yeni hökumətin xahişi ilə və BMT mandatına uyğun olaraq qala bilərdi [Secretary Council Resolution 1546 // http://unscr.com/en/resolutions/1546366]. Bunun ardınca 1990-cı ildə İraqın Küveytə hücumundan sonra kəsilmiş İraq-ABŞ diplomatik münasibətləri bərpa edildi.

Lakin keçid hökumətinin ölkədə asayişi müstəqil şəkildə qorumaq və qarşıdan gələn seçkilərin təhlükəsizliyini təmin etmək üçün hələ kifayət qədər imkanları yox idi. Ona görə də bu vəzifə şiə üsyanı zamanı itirilən ərazilərə nəzarəti bərpa edən çoxmillətli qüvvələrə həvalə edildi. 2004-cü ilin avqustunda ən-Nəcəf uğrunda döyüşlərdə məğlub olan M. əs-Sədr, silahlı mübarizədən əl çəkərək siyasi fəaliyyətə keçməyə məcbur oldu. Koalisiya qüvvələri həmçinin Fəllucadan başqa sünni yaraqlılarının nəzarət etdikləri bütün şəhərlərdə müqaviməti qıra bildilər.

2004-cü il avqustun 15-də Bağdadda ÜmumIraq Milli Konfransı keçirildi. Konfrans müvəqqəti parlamenti – 100 nəfərdən ibarət Qanunvericilik Şurasını seçməli idi. Qanunvericilik Şurasının funksiyalarına müvəqqəti hökumətin fəaliyyətinə nəzarət etmək və 2005-ci il yanvarın 30-na təyin edilmiş ümumi seçkilərə hazırlığı həyata keçirmək daxil idi. Ölkənin müxtəlif siyasi, dini və ictimai qurumların 1300-dən çox nümayəndəsi 100 deputatın daxil olduğu Qanunvericilik Şurasının tərkibini müzakirə edərək təsdiqlədi: 81 deputatın namizədliyi üzrə səsvermə keçirildi, 19 yer isə buraxılmış İMİŞ-in üzvlərinə verildi. [Багирова, 2017, s.129]. Görülən tədbirlərə baxmayaraq, seçkilər ərəfəsində yeni zorakılıq dalğası baş qaldırdı. Bir sıra sünni bölgələrində səsvermə boykot edilsə də, ümumilikdə seçkilər gücləndirilmiş təhlükəsizlik şəraitində qrafik üzrə keçirildi. İşğal şəraitində və beynəlxalq müşahidəçilərin iştirakı olmadan keçirilməsinə baxmayaraq, bu seçkilər İraq dövlətinin tarixində ən azad və demokratik sayıla bilərdi. Nəticədə ölkədə legitim prezident, parlament və hökumətin formalaşması üçün real imkan yarandı.

Səsvermənin nəticələrinə görə, 275 yerlik Nümayəndələr Şurasında (parlament) yerlər aşağıdakı kimi bölündü: Ayətullah Əli Sistaninin Birləşmiş İraq Alyansı bloku – İbrahim əl-Cəfərinin rəhbərlik etdiyi şiə "əd-Daava əl-İslamiyyə" partiyası səslərin 48%-ni (140 mandat) topladılar. "Kürdüstan Alyansı" bloku 25,7% seçicinin səsini aldı (75 mandat), üçüncü yeri (13,8% səslə) şiə baş naziri Ə. Ələvinin "İraq siyahısı" bloku (40 mandat) tutdu. Sünni lideri H. əl-Yavərin rəhbərlik etdiyi "İraqlılar" bloku 5 mandat, şiə M. əs-Sədrin "Elit Müstəqil Siyahısı" – 3, Kürdüstan İslam Partiyası – 2, "İraq İslam Hərəkatının Şiə Təşkilatı - Mərkəzi Rəhbərlik" – 2, sünni "Razılığı və Azadlıq" bloku isə – 1 mandat aldılar. Qalan 7 yer türkman, xristian və kommunist birlikləri arasında bölüşdürüldü. Aparıcı sünni siyasi qüvvələr bu seçkiləri rəsmi şəkildə boykot etdilər [Independent Electoral Commission of Iraq/www.leciraq.org]. Bütövlükdə isə uzun illər İraqa hakimiyyətdə olmuş sünni elitası siyasi həyatdan kənarlaşdırıldı, önə isə şiə və kürd siyasətçiləri çıxdılar. 2005-ci ilin aprelində müxtəlif siyasi qüvvələr arasında uzlaşma nəticəsində kürd liderlərindən biri C. Talabani İraqın prezidenti, şiə A. Əbdul-Mehdi və sünni H. əl-Yavər isə vitse-prezident oldular. Bir ay sonra parlament "əd-Daava əl-İslamiyyə" partiyasının lideri, şiə İbrahim əl-Cəfərinin başçılıq etdiyi, dörd müavin və 32 nazirdən ibarət keçid hökumətinin tərkibini təsdiqlədi. Onun əsas vəzifəsi İraqın yeni Konstitusiyasının layihəsini hazırlamaq idi.

Konstitusiyanın hazırlanması və qəbulu prosesi şiə çoxluğu ilə sünni azlığı arasında konfessional qarşıdurmanın güclənməsinə, aparıcı siyasi qüvvələr arasında hakimiyyət məsələlərində, milli sərvətlərdən, ilk növbədə neftdən əldə olunan gəlirlərin bölüşdürülməsi və ölkənin dövlət quruluşu məsələlərində kəskin fikir ayrılıqlarının dərinləşməsinə gətirib çıxararaq İraqı vətəndaş müharibəsi astanasına sürüklədi [Сапронова, 2005, s. 75]. İş o yerə çatdı ki, daxili "hesablaşmalar" fonunda sünni və şiə silahlı qruplarının ölkədə xarici qoşunların olmasına qarşı mübarizəsi arxa plana keçdi. Bir tərəfdən şiə və kürd siyasi partiyaları, digər tərəfdən sünnilər arasındakı ixtilaflar və fikir ayrılıqları əsasən bu kimi ciddi məsələlər ətrafında cəmləşmişdi: dövlətin rəsmi adı, İslama mü-

nasibət (şəriət qanunlarının əsas qanunvericilik mənbəyinə çevrilə biləcəyi düstur), ölkənin bütün etnik qruplarını göstərmək lazım olub-olmaması, dil (kürd dili ərəb dili ilə bərabər hüquqları olmalıdır, yoxsa yalnız kürdlərin yaşadığı ərazilərdə rəsmi dil olmalıdır?), İraqın ərəb və ya İslam dövləti kimi identifikasiyası zərurətinin olması, qadınlara parlamentdə 25% kvota verilməsi və s. Sünnilərin əsas etirazları layihənin dövlətin federativ quruluşu, Bəəs partiyasının ləğvi, prezident və parlament arasında səlahiyyətlərin bölüşdürülməsi, İraqın ərəb dünyasına mənsubluğu ilə bağlı bəndlərinə aid idi [Кто написал Конституцию Ирака? /http:vlasti.net/index.php/news].

İraqda siyasi prosesin irəliləməsinə və legitim hakimiyyətin formalaşmasına böyük ümid bəsləyən ABŞ üçün Konstitusiya ilə bağlı yaranmış çoxsaylı problemlər arzuolunmaz idi, ona görə Konstitusiya layihəsinin müzakirəsini sürətləndirmək üçün parlamentin əsas fraksiyalarına təzyiqlər artırıldı. Əslində 2005-ci il avqustun 29-da deputatların müzakirəsinə təqdim edilən yeni Konstitusiya mətni 275 yerlik parlamentdə çoxluğa (221 deputata) malik olan kürdlər və şiələr arasında konsensusun nəticəsi idi. Bununla bağlı müxtəlif siyasi qruplar arasında intensiv məsləhətləşmələr aparılmış və layihənin yekun variantının müzakirəsinin son tarixi müəyyən edilmişdir. Qanunun təsdiqi üçün səsvermə tələb olunmadığından o, sadəcə olaraq deputatlar qarşısında oxunduqdan sonra ümumxalq səsvermərsinə çıxarıldı. Yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibində olan sünnilər “işğalçıların təzyiqi ilə yazıldığını və ölkədə vəziyyətin daha da pisləşməsinə gətirib çıxaracağını” əsas gətirərək layihəni imzalamaqdan imtina etdilər və BMT və Ərəb Dövlətləri Liqasına müraciət edərək kömək istədilər [Багирова, 2017, s. 141]. Radikal şiə lideri M. əs-Sədr də yeni Konstitusiyanın mətninə qarşı çıxaraq, onun “amerikalıların böyük təsiri altında yazıldığını” vurğuladı. Onun fikrincə, xüsusi narahatcılığı “ölkənin birliyinə və ərazi bütövlüyünə təhlükə” olan federallaşma bəndi ifadə edirdi.

Yeni Konstitusiyası İraqı çoxmillətli və çoxkonfessiyalı ölkə, eləcə də İslam və Ərəb dünyasının bir hissəsi; Ərəb və kürd dilləri ölkənin rəsmi dilləri elan edildi. Konstitusiyanın 9-cu maddəsinə əsasən hərbi qulluqçuların seçkilərdə namizəd və ya başqa namizədin komandasının üzvü kimi iştirakı yasaq olunurdu. Konstitusiyada ölkənin federativ quruluşuna və səlahiyyətlərin mərkəzlə bölgələr arasında bölüşdürülməsinə mühüm yer verildi. 113 və 114-cü maddələrə əsasən, İraqın federativ sistemi paytaxtdan, bölgələrdən, mərkəzləşdirilməmiş əyalətlərdən və yerli ərazi vahidlərindən; bölgələr bir və ya bir neçə əyalətdən ibarət idi. Federal hökumətin funksiyalarına xarici siyasətin, milli təhlükəsizlik və müdafiə siyasətinin formalaşdırılması, o cümlədən sərhədlərin mühafizəsi, maliyyə və gömrük siyasətinin hazırlanması, pul vəsaitlərinin dövriyyəyə buraxılması, dövlət büdcəsinin formalaşdırılması, vətəndaşlıq məsələləri, siyasi qaçqınların vətəndaşlığı və statusu, rabitənin təşkili, İraqdan kənarda su ehtiyatları ilə bağlı siyasətin planlaşdırılması və s. 116-cı maddəyə əsasən, federal və regional qanunlar arasında ziddiyyətlər olduqda, federal hakimiyyət orqanlarının müstəsna səlahiyyətlərinə aid olmayan hallarda regional hakimiyyət qurumları federal qanunların bölgə ərazisində tətbiqinə dəyişiklik etmək hüququna malik idi [Full Text of Iraqi Constitution.2005 / http: //www.globalpolicy.org/security/issues/iraq/2005.htm]. Konstitusiya “ölkənin çoxpartiyalı siyasi sisteminin bir hissəsi olmaq hüququndan məhrum edilən” 2003-cü ilə kimi İraqın iqtidar partiyası olan Bəəs partiyasını qadağan etdi. İstər qanunvericilik, icra və məhkəmə hakimiyyətinin strukturlarında, istərsə də regional səviyyədə, Bəəsin ləğvi haqqında qanunun müddəaları altına düşmüş şəxslər heç bir yüksək dövlət vəzifəsi tuta bilməzdilər. Həmin bənd bu və ya digər dərəcədə və müxtəlif səbəblərdən S. Hüseyn rejimi ilə əməkdaşlıq edən xeyli sayda vətəndaşın hüquqlarını məhdudlaşdırdı. Əldə edilən kompromis nəticəsində 2005-ci il oktyabrın 15-də ölkənin yeni Konstitusiyasının yekun variantı ümumxalq səsvermərsinə çıxarıldı və o, əhalinin 78 % səsini topladı.

Ölkənin ictimai-siyasi həyatında daha bir mühüm mərhələ 2005-ci il dekabrın 15-də parlamentin daimi fəaliyyət göstərən aşağı palatası – Nümayəndələr Şurasına ümumxalq seçkilərinin keçirilməsi və onun nəticələrinə yeni hökumətin formalaşdırılması idi. Seçkilərdə 326 partiya, blok və müstəqil namizəd, o cümlədən 19

koalisiyanı birləşdirən 307 siyahı iştirak edirdi. Onlar qanun pozuntuları ilə müşayiət olunsa da, beynəlxalq standartlara əsasən baş tutmuş sayıldı, azad və demokratik seçki kimi qiymətləndirildi. Seçkinin 2006-cı il yanvarın 20-də açıqlanan rəsmi nəticələrinə görə, parlamentdəki yerlər aşağıdakı kimi bölündü: şiə dini partiyalarının koalisiyası – “Birləşmiş İraq Alyansı” 128 yer, “Kürd Alyansı” 53 yer (blokun tərkibinə assuriya, türkman və xristian qruplarının nümayəndələri də daxil idi), üçüncü yeri 44 mandatla sünniləri birləşdirən “İraq Razılıq Cəbhəsi” tutdu (digər sünni siyahıları ilə birlikdə 58 yer) və 25 mandatı Ə. Əlləvinin başçılıq etdiyi “İraq siyahısı” qazandı [Багирова, 2017, s.143].

Seçkilərin rəsmi nəticələrinin elan edilməsindən cəmi dörd ay sonra uzun sürən məsləhətləşmələr nəticəsində ölkənin aparıcı siyasi qüvvələri konsensusa gələ bildilər və kürd liderlərindən biri C. Talabani İraq prezidenti seçildi. Baş nazir namizədliyinə gəlincə, şiə partiyalar bloku bu vəzifəyə hökumət başçısı İbrahim əl-Cəfərinin namizədliyini irəli sürdü. Sünni ərəblər və kürdlər onu İraq cəmiyyətini birləşdirə bilməməkdə, sünni və kürd əhalisinin etimadını qazanmamaqda və fəaliyyətində ilk növbədə siyasi fraksiyasının maraqlarını rəhbər tutmaqda ittiham edərək naizədliyinin əleyhinə çıxdılar. Onlar həmçinin İ. əl-Cəfərini “müxalifəti təqib etməkdə və məzhəblərarası qarşıdurmanı qızışdırmaqda” günahlandırırdılar. O, bu ittihamlara cavab olaraq bildirdi ki, parlamentdəki şiə çoxluğu istəsə, istefa verməyə hazırdır və ardınca Nuri əl-Məlikinin namizədliyi irəli sürüdü. Siyasi dairələr N. əl-Məlikini “qeyri-qanuni silahlı birləşmələrin hərəkətlərini cilovlamağa qadir olan güclü adam” hesab edilirdi. Qeyd edək ki, rejim devrildikdən sonra İraqa qayıdan N. əl-Məliki Bəəsin ləğvi üzrə komissiyanın tərkibində və ölkənin yeni Konstitusiyasını hazırlayan komissiyanın üzvü kimi fəaliyyət göstərirdi [Кирсанов, Ирак: перспективы развития политической ситуации /http:www.iimes.ru/rus/stat/2006htm].

İ. əl-Cəfəriyə yaxın olmalarına baxmayaraq, sünni və kürd liderləri nəticədə ölkənin yeni Baş naziri təyin olunan N. əl-Məlikinin namizədliyi ilə bağlı razılığa gəldilər. N. əl-Məliki deputatlar qarşısında ilk çıxışında dini və etnik fərqləri bir kənara qoyub İraq cəmiyyətinin bütün təbəqələrinin nümayəndələrindən ibarət hökumət yaratmaq, habelə ölkədə təhlükəsizlik və sabitliyin təmin edilməsi məsələlərini həll etmək niyyətində olduğunu bildirdi. 2006-cı il iyunun 25-də o, parlamentə milli barışıq planını təqdim etdi ki, bu, müxtəlif siyasi və dini qrupların silahlı birləşmələrinin ləğvi, hökumət əleyhinə olan qüvvələrlə dialoqun başlanması, Bəəs partiyasının üzvlərinin reabilitasiyası və terrorçuluq fəaliyyətində iştirak etməyən müxalifət üzvləri üçün geniş amnistiya nəzərdə tuturdu.

Beləliklə, legitim hakimiyyətin formalaşması İraqın siyasi-hüquqi inkişafında yeni mərhələnin başlanğıcını qoydu və daxili siyasi vəziyyətin sabitləşməsi və ölkənin siyasi dalandan çıxması üçün real şərait yaratdı. 2005-ci il parlament seçkilərindən və legitim hakimiyyət orqanlarının formalaşmasından sonra İraqın siyasi cəhətdən yenidənqurulması prosesi yeni inkişaf mərhələsinə qədəm qoydu.

## ƏDƏBİYYAT

Abbasi, M.O., Naqvi, F. (2024). The U.S. Policy towards Post-Saddam Iraq: Implications for the Middle Eastern Regional Security. *Strategic Studies*. Vol 44. № 1. p. 45-63.

Arı, T. (2006). *Geçmişden Günümüzde Orta Doğu. Siyaset, Savaş ve Diplomasi*. Ankara: Alfa

Ахмед, Али Н.С. (2010). Война в Ираке: основные причины и предпосылки. Минск: *Ученые записки БГУ им. П.М. Машерова,* №9, s.119-125.

Багирова, А. (2017). *Иракский кризис: внутренний и международный аспекты*. Баку: Elm və təhsil

Багирова, А. (2006). О некоторых аспектах шиитской проблемы в Ираке. Баку: *Научные исследования ИВАН.* №1-4, s.132-134

Буш объявил об окончании войны в Ираке URL: http://www.newsru.com/world/02may2003/end.html

Bush Sending Additional US Forces to Support Iraqi Troops President tells American public he is backing Iraqi security plan. URL: https://www.whitehouse.gov/about-the-white-house/presidents/george-w-bush/

Гушер, А. (2003). Ирак: война и ее последствия. Москва: *Азия и Африка сегодня,* №6, s. 276-280

Full Text of Iraqi Constitution. 2005. URL: http://www.globalpolicy.org/security/issues/iraq/2005.htm

Independent Electoral Commission of Iraq. URL: www.leciraq.org

Keegan, J. (2004). *The Iraq War*. New York: Knopf.

Кирсанов, Е.Е. Ирак: перспективы развития политической ситуации. URL: http:www.iimes.ru/rus/stat/2006htm.

Ключников, Б. (2007). *Саддам или иракская трясина Америки.* Москва: Изд. Дом «Звонница»

Кто написал Конституцию Ирака? URL: http:vlasti.net/index.php/news

Moens, A. (2004). *The foreign policy of George W. Bush: values, strategy and loyalty.* Cornwall: Ashgate Publishing Ltd.

Pauly, R.Jr., Lansford, T. (2005). *Strategic preemption. US Foreign Policy and the Second Iraq War.* Cornwall: Ashgate Publishing Ltd.

Saatçı, S. (2007). *Tarihten Günümüze İrak Türkmenleri*. Ankara: Ötüken Neşriyyat A.Ş.

Сажин, В. (2003). «Шиитские проблемы» постсаддамовского Ирака. Москва: *Специальный бюллетень,* s. 91-99

Сапронова, М.А. (2005). *Иракская конституция в прошлом и настоящем*. Москва: Институт Ближнего Востока

Сапронова, М.А. (2004). Новая временная Конституция Ирака: структура, основные положения, особенности. Москва: *Ближний Восток и современность*. Вып.23, s. 231-242

Secretary Council Resolution 1483 URL: http://unscr.com/en/resolutions/1483

Secretary Council Resolution 1500 URL: http://unscr.com/en/resolutions/1500

S/RES/1511 // https://undocs.org/en/S/RES/1511

Secretary Council Resolution 1546 URL: http://unscr.com/en/resolutions/1546366

Simpson, J. (2003). *The War against Saddam.* London: St. Martin's.

Сушенцов, А.А. (2010). Эволюция политических приоритетов США в Ираке. Москва: *США – Канада. Экономика, политика, культура, международные отношения*. №7, s. 53-66.

Юрченко, В.П. (2003). О создании новой иракской армии. Москва: *Институт Ближнего Востока*, s.22-31

Юрченко, В.П. О положении в иракской оппозиции URL: www.iimes.ru/rus/stat/2003/27-01-03.htm

Юрченко, В.П. (2003). Военно-политическая обстановка в Ираке. Москва: *Ближний Восток и современность*. Вып. 17, s.76-80

Юрченко, В.П. (2003). О вооруженном сопротивлении в Ираке. Москва: *Ирак под американским управлением: демократизация или «вьетнамизация»*. s. 22-31

Yılmaz, H. (2004). İrak'ta Mühalefet ve ABD'nın İrak Politikası. Ankara: *Avrasya Dosyası*, №3, s. 66-96

## Summary

**Aida Bagirova**

### On some aspects of Iraq's reconstruction after the 2003 war

Since the late 20th century, Iraq, one of the leading states in the Middle East, has experienced perhaps the most dramatic and socio-politically charged period in its modern history. The country became the center of an acute military and political crisis that assumed broad international proportions. The events of September 11, 2001, and the US fight against international terrorism directly affected the Iraqi regime, and its elimination became one of the main goals of the counterterrorism campaign. In early 2003, the military and political crisis around Iraq reached its peak and entered a decisive phase. As a result of the military operation codenamed "Iraqi Freedom," conducted by the US-led international coalition, the Iraqi regime fell. The elimination of the Baath Party regime,

which had ruled Iraq for 35 years and monopolized its socio-economic and socio-political development, led to a profound power vacuum in the country.

This article examines the US-led coalition's reconstruction of Iraq and the formation of new power structures in the country following the overthrow of Saddam Hussein's regime during the 2003 war. It also analyzes important aspects of the country's domestic problems in this context.

As a result, the reconstruction of Iraq, the creation of a new world order in the region as a whole, the reconfiguration of leading political forces, and the formation of a legitimate government marked the beginning of a new stage in its political and legal development and created a real foundation for stabilizing the domestic political situation.

***Keywords:*** *Iraq, 2003 War, USA, International coalition, Iraqi reconstruction, UN Security Council*

**Резюме**

**Аида Багирова**

**О некоторых аспектах восстановления Ирака после войны 2003 года**

С конца XX века одно из ведущих государств Ближнего Востока – Ирак пережил, пожалуй, самый драматичный и насыщенный социально-политическими потрясениями период в своей современной истории. Страна превратилась в центр острого военно-политического кризиса, принявшего широкий международный масштаб. События 11 сентября 2001 года и борьба США с международным терроризмом напрямую затронули иракский режим, и его ликвидация стала одной из главных целей антитеррористической кампании. С начала 2003 года военно-политический кризис вокруг Ирака достиг своего пика и вступил в решающую стадию. В результате военной операции «Иракская свобода», проведенной международной коалицией во главе с США, иракский режим пал. Ликвидация режим партии Баас, которая правила в Ираке в течение 35 лет и монопольно определяла его социально-экономическое и общественно-политическое развитие, привела к основательному вакууму власти в стране.

В статье рассматривается процесс восстановления Ирака после свержения режима Саддама Хусейна в ходе войны 2003 года, формирования новых властных структур в этой стране, а также анализируются важные аспекты внутренних проблем в данном контексте.

В результате, восстановление Ирака, создание нового миропорядка в регионе в целом, изменение конфигурации ведущих политических сил, формирование легитимного правительства ознаменовали начало нового этапа в его политико-правовом развитии и создали реальную основу для стабилизации внутриполитической ситуации.

***Ключевые слова:*** *Ирак, война 2003 года, США, международная коалиция, восстановление Ирака, Совет Безопасности ООН*